

COMPASS GROUP

COMPASS GROUP PLC

# QLOBAL TƏCHİZATÇI DAVRANIŞI KODEKSİ



# "BÜTÜN İŞLƏRİMİZDƏ TƏHLÜKƏSİZLİK, DÜRÜSTLÜK VƏ HÖRMƏT

## BU «COMPASS GROUP»-UN YOLUDUR



# MƏQSƏD

«Compass Group» (Kompas/biz) bizə qlobal lider və etibarlı tərəfdaş mövqeyi qazandırmış ən yüksək etika və vicdanlılıq standartlarını qoruyub saxlamaq öhdəliyinə malikdir. Biz hər gün dünyada milyonlarla insanı yemək və dəstək xidmətləri ilə təmin etməkdən qürur duyuruq. «Compass Group»-un əsas Dəyərləri və İşgüzar Davranış Kodeksi işçilərimizin qərarlarını, hərəkətlərini və davranışlarını yönləndirir və müştərilərimiz, təchizatçılarımız, biznes tərəfdaşlarımız və fəaliyyət göstərdiyimiz icmalarla işgüzar münasitələrimizin əsasını təşkil edir.

Məhz bu məramla «Compass Group»-un Qlobal Təchizatçı Davranışı Kodeksi (Kodeks) təchizat zənciri tərəfdaşlarımızdan (təchizatçılardan/sizdən) riayət etməyi tələb etdiyimiz prinsip, gözlənti və davranışları müəyyən edir.

Bizimlə işləyən bir çoxunuzun biznes münasibətlərinizdə və işgüzar mühitdə istinad etdiyiniz öz prinsiplərinizi işləyib hazırlamağınızdan qürur duyuruq. Bu baxımdan sizdən həmin prinsipləri bizim prinsiplərlə əvəz etməyinizi deyil, lakin sizdən dəyərlərimizə riayət etməyi davam etdirməyinizi və «Compass Group»-la əməkdaşlıq prosesində bu Kodeksin prinsiplərini və təchizatçı gözləntilərini dəstəkləməyinizi istəyirik.



## DƏYƏRLƏR

- **AÇIQLIQ, ETİBARLILIQ VƏ DÜRÜSTLÜK**
- **KEYFİYYƏTƏ CAN ATMAQ**
- **KOMANDA İŞİ SAYƏSİNDƏ QALİBİYYƏT**
- **MƏSULİYYƏT**
- **TƏHLÜKƏSİZ İCRA**

# FƏALİYYƏT SAHƏLƏRİMİZ

Bizim dəyərlərimizi bölüşən təchizatçılarla işləmək istəyirik.

Bu Kodeks tədarük zəncirimizdə «Compass Group»-un yüksək etik standartlarını və prinsiplərini təbliğ edir və təchizatçımızın dayanıqlılıq və məsuliyyətliliyinə can atmaq məramımızı ifadə edir. Bunlar sizinlə və törəmə şirkətlərinizlə bağlı gözlədiyimiz minimum standartlardır və Kodeksdəki hər hansı müddəa təchizatçıların bu standartlardan kənara çıxmasına mane ola bilməz.

Təchizatçılar ilə qarşılıqlı əlaqə saxladığımız 5 fəaliyyət sahəsi:

- Biznes dürüstlüyü və etik prinsiplər
- İnsan hüquqları və əmək standartları
- Sağlamlıq və təhlükəsizlik
- Dayanıqlılıq
- Danışın, sizi dinləyirik!

## TAM MƏSULİYYƏT

Biz sizdən hazırkı Kodeksdə müəyyən edilmiş prinsip və öhdəlikləri müvafiq maraqlı tərəflərinizə təbliğ edəcəyinizi və öz təchizat zəncirinizdə məsuliyyətli biznes təcrübələrini təşviq edəcəyinizi gözləyirik. Biz vaxtaşırı sizdən bu Kodeksdəki prinsip və öhdəliklərin yerinə yetirilməsini təmin etməyə kömək etməyin zəruriliyini nəzərə alaraq, «Compass Group»-la işgüzar münasibətlərinizlə bağlı zəruri məlumatları açıq şəkildə bölüşməyinizi və ya audit və ya təhlildə (tələb olunduqda) iştirak etməyinizi xahiş edə bilərik.

«Compass Group» etiraf edir ki, proseslərdə çatışmazlıqlar yarana bilər və vəziyyəti yaxşılaşdırmaq və problemləri aradan qaldırmaq üçün təshihedici planın həyata keçirilməsi vaxt tələb edə bilər. İşlərin qeyri-qənaətbəxş gedişatında və ya bu Kodeksə əməl edilmədiyi halda, «Compass Group» hər hansı təchizatçı ilə işləməkdən imtina edə və ya hər hansı müqaviləyə xitam vermək üçün tədbirlər görə bilər.



Bu sənədə vaxtaşırı dəyişiklik edilə bilər. Məcəllənin ən son versiyası Compass-ın internet saytında https://www.compass-group.com/en/who-we-are/corporate-governance/policies.html ünvanında mövcuddur.

# ÜMUMİ GÖZLƏNTİLƏR



Bizim qlobal səviyyədə öz biznes fəaliyyətlərimizi qanuni, məsuliyyətli və etik şəkildə həyata keçirmək üçün tələb olunan davranışlarla bağlı aydın gözlənti və standartlarımız vardır.

## TƏCHİZATÇILAR İLƏ ƏLAQƏLİ GÖZLƏNTİLƏRİMİZ NƏLƏRDİR?

- əməliyyatlarınız və «Compass Group»-la işgüzar münasibətlərinizlə bağlı bütün qüvvədə olan qanun və qaydalara əməl edin. Bu Kodeksin tələbləri ilə qüvvədə olan qanun və ya qaydalar arasında fərq olarsa, təchizatçı hansı daha sərtdirsə, ona əməl etməlidir.
- bu Kodeksdə müəyyən edilmiş prinsip və öhdəliklərə riayət edin və onları gündəlik iş təcrübənizdə və müvafiq olduqda, öz siyasət və prosedurlarınız vasitəsilə aşılayın
- müvafiq uyğunluq standartlarını yoxlamaq və nümayiş etdirmək üçün müvafiq proseslərin olduğundan əmin olun
- riskləri qiymətləndirin və lazımi araşdırma aparın, risklərin qiymətləndirilməsini həyata keçirin və lazım olduqda, insan haqları və əmək hüquqları da daxil olmaqla, iş etikası və dürüstlük riskləri ilə bağlı öz təchizatçılarınızı, subpodratçılarınızı və tərəfdaşlarınızı yoxlayın
- işçilərə standartlara riayət etməyə kömək etmək üçün lazım olan müvafiq məlumat, təlim və vasitələri təmin edin və onların narahatlıqlarını təhlükəsiz şəkildə və qorxu olmadan bildirmələrinə imkan verən mexanizmin yaradın
- bu Kodeksə əməl etməyinizə təsir edə biləcək hər hansı narahatlıq barədə vaxtında «Compass Group»-dakı kontakt şəxsə və ya bizim məxfi hesabat proqramımız olan Danışın, sizi dinləyirik vasitəsilə dərhal məlumat verin

# BİZNES DÜRÜSTLÜYÜ



Bizim prinsipimiz: biz öz biznesimizi etik şəkildə həyata keçiririk və işçilərimizdən və təchizatçılarımızdan gördüklərimiz bütün işlərdə dürüstlük nümayiş etdirməklə yüksək standartlara riayət edəcəklərini gözləyirik.

**Heç vaxt bizimlə paylaşmayın:**

– Rəqiblərimizin və ya onların tərəfdaşlarının bildirdikləri təklifləri və ya dolayı üsulla eşitdiyiniz rəqib təkliflərini
– Rəqiblərimizə etdiyiniz təklifləri

**Həmişə:**

**- rəqabət əleyhinə davranış və ya digər qeyri-qanuni və ya qeyri-qanuni hallar,rüşvət və korrupsiya halları kimi hər hansı biznes dürüstlüyünə dair iddialarınız və ya narahatlığınız barədə bizə məlumat verin,**

## TƏCHİZATÇILAR İLƏ ƏLAQƏLİ GÖZLƏNTİLƏRİMİZ NƏLƏRDİR?

– ən azı, biznes dürüstlüyü ilə bağlı bütün tətbiq olunan qanunlarına əməl etmək1
– etik biznes təcrübələri ilə bağlı konkret öhdəliklər qəbul etmək və onları təşviq etmək
– heç vaxt rüşvət verməə, rüşvət verməyə cəhd etmə və ya hər hansı formada rüşvət və ya korrupsiyada iştirak etmə, o cümlədən dövlət və ya dövlət məmurlarına asanlaşdırma ödənişləri qismində hər hansı ödənişlər etməmək
Qəbul edilən, təklif edilən, tələb olunan və ya verilən hər hansı hədiyyələrin və ya qonaqpərvərliyin təmtəraqlı və ya həddən artıq olmadığını və digərlərində öhdəlik hissi və ya öhdəlik təəssüratı yaratmamaq.
Tender, təklif və ya müqavilə danışıqları və ya yenidən danışıqlar zamanı və ya ərəfəsində hər hansı hədiyyə və qonaqpərvərlik qadağasına hörmətlə yanaşmağınızı gözləyirik. Rüşvət, qeyri-qanuni və ya ədalətsiz seçim və ya maraqların toqquşması haqqında təsəvvürlər zərərli ola bilər.
– qeyri-münasib məlumat mübadiləsi də daxil olmaqla, rəqabətə zidd davranış, antiinhisarda iştirak etməmək və ya buna şərait yaratmamaq
– «Compass Group» ilə münasibətlərdə heç bir maraq toqquşmasının olmadığından əmin olmaq. Şəxsi fəaliyyətlərin, münasibətlərin və ya digər maraqların, o cümlədən bu Kodeksə uyğun olaraq, «Compas Group»-un qarşısındakı öhdəliklərlə ziddiyyət təşkil edən hər hansı vəziyyətdən xəbərdar olduqda, «Compas Group»-da əlaqə saxladığınız şəxsə məlumat vermək.
– çirkli pulların yuyulmasında, terrorçuluğun maliyyələşdirilməsində, iqtisadi və ya ticarət sanksiyalarının pozulmasında, vergidən yayınmada, oğurluqda və ya dələduzluğun hər hansı formasında (birbaşa və ya dolayısı ilə) iştirak və ya vasitəçilik etməmək
– bütün qüvvədə olan qanuni və tənzimləyici tələblərə və qəbul edilmiş mühasibat təcrübələrinə uyğun olaraq dəqiq maliyyə jurnalları tərtib etmək və biznes uçotu həyata keçirmək, o cümlədən fakturaları saxlamaq

1. Tətbiq olunan biznes dürüstlüyünə dair qanunlara rüşvətxorluq və korrupsiya, maraqların toqquşması, rəqabət, antiinhisar, fırıldaqçılıq, oğurluq, maliyyə təhrifləri, kitablar və qeydlər, vergidən yayınma, çirkli pulların yuyulması, terrorizmin maliyyələşdirilməsi, iqtisadi və ticarət daxil ola bilər, lakin bunlarla məhdudlaşmır. Eyni zamanda, sanksiyalar, ixrac nəzarəti, insan hüquqları və müasir köləlik.

# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ VƏ MƏLUMATLARIN MƏXFİLİYİ




**Bizim prinsipimiz:** biz məlumatların məxfiliyini qorumağa və təchizatçılarımız, sifarişçilərimiz, müştərilərimiz və digər üçüncü tərəflər də daxil olmaqla bütün əməkdaşlarımızın və biznes tərəfdaşlarımızın məxfilik hüquqlarına hörmət etməyə sadiqik.

## TƏCHİZATÇILAR İLƏ ƏLAQƏLİ GÖZLƏNTİLƏRİMİZ NƏLƏRDİR?

- ən azı məlumat məxfiliyi və kibertəhlükəsizliklə bağlı bütün müvafiq qanun və qaydalara əməl etmək
- «Compass Group» ilə işgüzar münasibətlərinizdə şəxsi və məxfi məlumatlardan yalnız icazəli məqsədlər və yalnız səlahiyyətli şəxslər tərəfindən istifadə olunduğundan əmin olmaq
- «Compass Group» ilə əlaqəli hər hansı məxfi, şəxsi və ya kommersiya baxımından həssas məlumatı (müvafiq razılıq olmadan) açıqlamamaq
- hər hansı şəxsi məlumatın yalnız razılaşdırılmış biznes məqsədləri üçün istifadə edildiyini və qüvvədə olan qanunlara və «Compass Group» qarşısında müvafiq müqavilə öhdəliklərinə uyğun olaraq əldə edildiyini, işlənməsini, məhv edilməsini və ötürülməsini təmin etmək
- «Compass Group» ilə bizneslə bağlı hər hansı məlumatın dəqiq olmasını və hər hansı qeyri-dəqiq məlumatın silinməsini, düzəldilməsini və ya müvafiq qaydada dəyişdirilməsini təmin etmək
- «Compass Group» ilə biznes əlaqələrinizlə bağlı məlumatların qorunması üçün müvafiq texniki və təşkilati məlumat qoruma tədbirlərinin tətbiq olunmasını təmin etmək
- Hər hansı faktiki və ya məlumat pozuntusu şübhələri olduqda, bu barədə mümkün qədər tez «Compass Group»-a məlumat vermək və «Compass Group»-məsələni araşdırmağa kömək etmək üçün hər hansı sorğularda iştirak etmək.

# İNSAN HÜQUQLARI VƏ MÜASİR KÖLƏLİK



Prinsipimiz: qlobal miqyasda insan hüquqlarının müsbət yönümlü inkişafı və yaxşılaşdırılması, o cümlədən müasir köləliyin və insan alverinin aradan qaldırılması tendensiyasına sadiqik. Biz istənilən və bütün növ insan hüququ pozuntularına və ya sui-istifadə hallarına qarşıyıq.

## Təchizatçılar ilə əlaqəli gözləntilərimiz nələrdir?

- iş saatları və iş günləri, minimum əmək haqqı, əlavə iş, fasilələr və istirahət vaxtı, xəstəlik məzuniyyəti və illik əmək məzuniyyəti, eləcə də digər icbari müavinətlər də daxil olmaqla (lakin bununla məhdudlaşmamaqla) ən azı insan hüquqları və müasir köləliklə bağlı bütün qüvvədə olan qanun və qaydalara riayət etmək, müvafiq uçotun aparılamsını təmin etmək
- bütün işçilərə və fəhlələrə humanist yanaşmaq və bütün işlərin sərbəst seçilməsini təmin etmək
- hər hansı formada uşaq əməyindən, məcburi, qeyri-ixtiyari əməkdən faydalanmadığınızdan əmin olmaq
- bütün işçilərin müvafiq qanuni minimum məşğulluq yaşına cavab verməsini və uşaq əməyinin və istismarının qarşısını almaq üçün sistemlərin mövcud olmasını təmin etmək
- insan alverinin istənilən formasına qəti şəkildə qarşı çıxmaq və tədarük zəncirinizdə hər hansı şübhəli risk və ya fəaliyyət olduqda, dərhal tədbir görmək.
- işinizdə və təchizat zəncirinizdə insan hüquqları ilə bağlı hər hansı şübhəli hallar müşahidə etdikdə, dərhal hərəkətə keçmək və araşdırma aparmaq

1. Kompas Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Etik Ticarət Təşəbbüsü (ETI) Əsas Kodeksi, Beynəlxalq Əmək Təşkilatının (BƏT) İş Yerində Əsas Prinsiplər və Hüquqlar haqqında Bəyannaməsi, Birləşmiş Millətlər Təşkilatının Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsipləri çərçivəsində təsbit edilmiş hüquqlara və Birləşmiş Millətlər Təşkilatının Qlobal Saziş 10 prinsipə hörmət edir.

# AYRI-SEÇKİLİYƏ, ZORAKILIĞA YOL VERMƏMƏK VƏ İNKLÜZİVLİK



Bizim prinsipimiz: biz qonaqpərvərlik, dəstək, hörmət və inklüzivliyə əsaslanan mədəniyyət formalaşdırmağa sadiqik və bütün əməkdaşlarımız üçün bərabərlik, rifah və ədalətə nail olmağa çalışırıq. Biz ayrıseçkiliyin, hədə-qorxunun və ya təqibin istənilən formasının əleyhinəyik.

## Təchizatçılar ilə əlaqəli gözləntilərimiz nələrdir?

- ən azı işçi və işçi hüquqları, ədalətli rəftar və məşğulluq ilə bağlı qüvvədə olan qanunlara riayət etmək
- bərabər imkanlara və hər bir işçinin, və ya iş müraciətçisinin ədalətlə və hörmətlə rəftar edilmək hüququnun təmin olunduğu müxtəlif və inklüziv iş mühitini yaratmaq və müvafiq siyasət və təcrübələri müvafiq qanunlara uyğun həyata keçirmək
- işə qəbul təcrübələrində ayrı-seçkiliyə yol verilməməsini təmin etmək
- İşçilərə münasibətdə fiziki, sözlə, cinsi və ya zorakılıq da daxil olmaqla hər hansı zərərli hərəkətlərə, ədalətsiz və ya qanunsuz təqiblərə, ayrı-seçkiliyə və ya ləyaqəti alçaldan rəftara yol verməmək və ya onları bu cür rəftara dözməyə vadar etməmək
- qanunsuz və ya ədalətsiz rəftarla bağlı hər hansı hesabat və ya müəyyən edilmiş hallar olduqda təxirəsalınmaz tədbirlər görmək

# MƏŞĞULLUQ



**Bizim prinsipimiz:** biz fərdi xüsusiyyətlərindən asılı olmayaraq, işçilər, iş müraciətçiləri üçün ədalətli, bərabər və etik məşğulluq imkanları yarratmağa sadiqik.

## Təchizatçılar ilə əlaqəli gözləntilərimiz nələrdir?

- ən azı yerli əmək qanunvericiliyinə cavab verən etik və müsbət iş şəraiti təmin etmək
- bütün işlərin qanunla tanınmış əmək münasibətlərinə əsaslanmasını və işçilərin ən azı əmək qanunvericiliyinə və qanunvericilik aktlarına uyğun olan məşğulluq şərtləri və müavinətlər haqqında aydın yazılı məlumat almasını təmin etmək.
- işə qəbulun etik və məsuliyyətlə həyata keçirilməsini təmin etmək
- işçilərin sərbəst təşkilatlanmaq və kollektiv sövdələşmə hüquqlarını tanımaq və onlara hörmət etmək

1. Fərdi xüsusiyyətlərə irq, cins, rəng, etnik mənsubiyyət, din, inanclar, yaş, əlillik, cinsi oriyentasiya, gender identifikasiyası, mənşə və ya işlə bağlı spesifik tələblərə əsaslanmayan hər hansı digər oxşar fərqlər aid oluna bilər (lakin bununla məhdudlaşmamaqla).

# SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK



**Bizim prinsipimiz: işçilərimizin və mallarımızı, avadanlıqlarımızı və xidmətlərimizi təmin edən bütün şəxslərin sağlamlığı, təhlükəsizliyi və rifahına əsaslanmaqla etibarlı iş yeri və qida təhlükəsizliyi və keyfiyyət standartları bizim üçün prioritet məsələlərdir.**

## TƏCHİZATÇILAR İLƏ ƏLAQƏLİ GÖZLƏNTİLƏRİMİZ NƏLƏRDİR?

– ən azı, bütün qüvvədə olan qanun və qaydalara və sizə və/yaxud «Compass Group»-la bağlı fəaliyyətlərinizə tətbiq olunan iş yerində sağlamlıq və təhlükəsizlik qaydaları və prosedurları üzrə müvafiq sahə standartlarına riayət etmək. Baş verə biləcək hər hansı narahatlıq və ya problemləri vaxtında «Compass Group»da əlaqə saxladığınız şəxsə bildirmək
– müvafiq siyasətlərin, standartların, prosedurların və sistemlərin tətbiqi və saxlanılması da daxil olmaqla, təchizatçılarımızın işinin bütün aspektlərində işçilər və onların sağlamlıq və təhlükəsizliyi prioritet olmalıdır
– işçiləri təhlükəsiz və sağlam iş mühiti və nəzərdə tutulduqda təhlükəsiz və etibarlı yaşayış yeri ilə təmin etmək
– iş yerində sağlamlıq və təhlükəsizlik mədəniyyətini təşviq etmək; risklərin qiymətləndirilməsi, hadisələrin və qəzaların idarə edilməsi və uçotunun aparılması da daxil olmaqla, müvafiq siyasət və təcrübələri tətbiq etmək
– hər hansı təhlükəli işin dərhal dayandırılmasını və yalnız təhlükə aradan qaldırıldıqdan və ya problem həll edildikdən sonra yenidən başlamasını təmin etmək
– bütün işçilərin adekvat və müvafiq sağlamlıq və təhlükəsizlik təlimi almasını və öz rollarını təhlükəsiz və uyğun şəkildə yerinə yetirmək üçün lazımi alət və avadanlıqlara malik olmasını təmin etmək
– «Compass Group»-la işgüzar münasibətlərinizə tətbiq olunarsa:
  – «Compass Group»-un qida təhlükəsizliyi və keyfiyyət standartlarını başa düşdüyünüzdən və onlara əməl etdiyinizdən əmin olmaq
  – qidaları həmişə sanitar şəraitdə, o cümlədən müvafiq normativ tələblərə riayət etməklə emal etmək, hazırlamaq, saxlamaq və daşımaq

# ƏTRAF MÜHİT



Bizim prinsipimiz: biz işimizi dayanıqlı şəkildə həyata keçiririk və ətraf mühitlə bağlı bütün müvafiq qanun və qaydalara riayət etmək, mənfi təsirləri minimuma endirmək və ətraf mühitə müsbət təsirlərə töhfə vermək imkanlarını artırmaq üçün fəal şəkildə səy göstəririk.

## Təchizatçılar ilə əlaqəli gözləntilərimiz nələrdir?

- ən azı ətraf mühitlə bağlı qüvvədə olan bütün qanunlara, qaydalara və sertifikatlara və məhsul və ya xidmətlərinizə, o cümlədən heyvanların rifahı ilə bağlı spesifikasiyalara (əgər varsa) riayət etmək
- biznes fəaliyyətlərinizdə ətraf mühitə qayğı göstərməklə dayanıqlı fəaliyyət göstərmək
- İşlərin tətbiqi zamanı ətraf mühiti qorumaq və mümkün olduqda bərpa etmək və yaxşılaşdırmaq üçün tədbirlər görmək
- Fəaliyyətlərinizin, məhsullarınızın və ya xidmətlərinizin ətraf mühitə mənfi təsirlərini mümkün olduğu qədər azaltmağa çalışmaq



# İCMA

**Bizim prinsipimiz: biz yaşadığımız və işlədiyimiz icmalara müsbət təsir göstərməyə çalışırıq, yerli icmalara dəstək imkanlarından istifadə edirik və öhdəliklərimizin şəffaf, etik və dəyərlərimizə uyğun olmasını təmin edirik.**

## Təchizatçılar ilə əlaqəli gözləntilərimiz nələrdir?

– mümkün olduqda, yerli icmaları və azlıqların biznes və təşkilatlarına, o cümlədən yerli bacarıq və səriştələrin artırılmasına dəstək vermək
– Harada mümkün olarsa, əməliyyatlarınızda qida tullantılarının azaldılmasına kömək etmək və artıq ərzaqların icma üzvlərinə paylanmasına dəstək vermək



SPEAK UP! We're listening

**Danışın, Sizi Dinləyirik!**

**Əlavə məlumat əldə etmək və ya narahatlığınızı ifadə etmək üçün buraya müraciət edin: SpeakUp, We're listening portal.**

# DANIŞIN, SİZİ DİNLƏYİRİK!

«Compass Group»-un təchizatçısı olaraq siz və işçiləriniz və podratçılarınız Speak Up, We're Listening; «Compass Group»-un məxfi və müstəqil şəkildə idarə olunan çoxdilli məlumatlandırma proqramına giriş etmək imkanına malikdirlər.

Əgər nəsə düzgün getmirsə və ya hazırkı Kodeksə, Compass Group»-un Dəyərlərinə və ya Biznes Davranışı Kodeksimizə uyğun gəlməyən mümkün pozuntular, cinayət fəaliyyətləri, qeyri-etik davranışlar və ya digər qeyri-münasib hallarla bağlı narahatlığınız varsa, Sizi bu barədə mövqeyinizi bidlirməyə dəvət edirik.

Bizin sadiq qaldığımız prinsipimizə əsasən, nələrinsə düzgün getmədiyini hiss etsəniz, bu barədə bizə bildirin.

«Danışın, sizi dinləyirik» sizə məlumatı məxfi və ya anonim təqdim etmək seçimi verir. Bilmək lazımdır ki, təqdim olunan məlumat və anonimlik hüququ yerli qanunlarla tənzimlənə bilər.

Biz ifadə olunacaq hər hansı narahatlığı lazımi qaydada nəzərdən keçirməyi və nəzarətdə saxlamağı öhdəmizə götürürük. Eyni şəkildə, bu Kodeksə, Compass Group»-un Dəyərlərinə və ya Biznes Davranışı Kodeksimizə uyğun prinsip və öhdəliklərə riayət etməyə davam edə bilmək üçün ifadə olunan narahatlıqlara cavab olaraq hər hansı araşdırma, audit və ya sorğularda tam əməkdaşlıq və iştirakınızı gözləyirik.

**Əlavə məlumat üçün, bu linkə istinad edin: Compass Speak and Listen Up Policy.**